**15-17 may tarixlərində keçirilmiş "Akademik yazı qaydaları", "Ictimai elm sahələrində tədqiqat metodları" və "Beynəlxalq elmi platformalardan informasiya mənbəyi kimi istifadə imkanları" təlimin hesabatı**

Naxçıvan Dövlət Universitetində Magistratura və doktorantura mərkəzi və Texnoloji transfer və innovasiyalar bölməsinin birgə təşkilatçılığı ilə magistrant, doktorant və tədqiqat işi ilə məşğul olan əməkdaşlara ehtiyacların ödənilməsi ilə bağlı aparılmış sorğunun nəticələrinə uyğun olaraq 15-17 may tarixləri arasında təlimlər keçirilmişdir. “Akademik yazı qaydaları”, “İctimai elm sahələrində tədqiqat metodları” və “Beynəlxalq elmi platformalardan informasiya mənbəyi kimi istifadə imkanları” mövzularında keçirilmiş üç günlük təlimdə Texnoloji transfer və innovasiyalar bölməsinin müdiri Elnarə Allahverdiyeva təlimçi kimi çıxış etmişdir. Ayrı-ayrı günlərdə müxtəlif mövzular üzrə interaktiv və diskussiyalı üsulla aparılmış təlimə ümumilikdə, 100-dən çox iştirakçı qatılmış, onların aktivliyi müşahidə edilmişdir.








Qeyd olundu ki, təlimlərin “sertifikatlı” olması iştirakçılarda motivasiya yaradaraq onları növbəti elmi tədbirlərdə iştiraka təşviq edir ki, müxtəlif mövzular üzrə maarifləndirmə prosesinin əsasını məhz bu tendensiya təşkil edir. Bu mövqedən yanaşdıqda, təlim iştirakçılarının aktivliyinin, təlimlərin davamlılığının təmin olunmasının və universitetdə təşkil olunmuş elmi əsaslı təlimlərə marağın və etimadın qorunmasının əhəmiyyətini nəzərə alaraq sözügedən təlimin iştirakçılarının sertifikatla təltif olunmasına münasibət bildirildi.

